*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 45-51* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.45*

# Azərbaycan maarifçi-realist uşaq nəsrində mənəvi-əxlaqi kamilliyin təcəssümü

**Sevinc Rəsulova**
Pedaqogika üzrə fəlsəfə doktoru
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Bakı Şəhəri üzrə Təhsil İdarəsi
E-mail: rasulova.s@mail.ru
https://orcid.org/0000-0003-1070-6069

**Annotasiya.** Bədii xəzinəmizin mühüm və əhəmiyyətli bir qolunu uşaq ədəbiyyatı təşkil edir. XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan uşaq ədəbiyyatının maarifçi-realist mərhələsidir. Bu mərhələdə uşaq ədəbiyyatımızın mövzu və ideya dairəsi çoxistiqamətlidir. Həmin istiqamətlərdən birini də mənəvi-əxlaqi kamillik mövzusu təşkil edir. Uşaq yazarlarımız (Seyid Əzim Şirvani, Rəşid bəy Əfəndizadə, Abdulla Şaiq, Abbas Səhhət, Əbdürrəhman Dai, Əlisəttar İbrahimov, Mir Seyfəddin Seyidov Şirvani, Sultan Məcid Qənizadə, Mir Ələsgər Növrəs və b.) bu mövzuda maraqlı əsərlər yazmışlar. Eyni zamanda həmin əsərlər mahiyyət etibarı ilə maarifçi-realist sənət nümunələridir. Mütərəqqi baxışlı şair və ədiblərimiz uşaq əsərlərində rəngarəng mənəvi və əxlaqi gözəlliklərin təsvirini, tərənnümünü və təbliğini diqqət mərkəzində saxlayırdılar. Əlbəttə, bu gözəlliklər çeşidli olduğundan həmin mövzuda qələmə alınan söz sənəti nümunələri də çeşidli məzmun və ideyaya malik olurdu. Həmin mövzu, məzmun və qayəyə malik çoxsaylı əsərlər içərisində mənəvi-əxlaqi kamillik ideyasını təcəssüm etdirən dəyərli bədii nümunələr mühüm yer tuturdu. Məqalədə mənəvi-əxlaqi kamillik mövzusunda yazılan nəsr əsərlərinin mövzu, ideya-məzmun xüsusiyyətləri, obrazlar aləmini nəzərdən keçirmişik. Məzmun baxımından vacib olan nəsr əsərlərini diqqət mərkəzində saxlamağa və təhlil etməyə çalışmışıq. Əsərlərin bədii dəyərini, uşaq ədəbiyyatındakı yerini aydınlaşdırmağa səy göstərmişik. Təhlil zamanı mümkün qədər çox ümumiləşdirmələr aparmışıq.
**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, uşaq nəsri, maarifçi-realizm, mənəvi-əxlaqi kamillik, dəyər

**Məqalə tarixçəsi:** göndərilib – 24.04.2024; qəbul edilib – 08.05.2024

# Embodiment of spiritual and moral perfection in Azerbaijani enlightened-realist children's prose

**Sevinj Rasulova**
Doctor of Philosophy in Pedagogy
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku City Education Department
E-mail: rasulova.s@mail.ru
https://orcid.org/0000-0003-1070-6069

**Abstract.** Children's literature is an important and significant part of our artistic treasure.The end of the 19th century and the beginning of the 20th century are the enlightenment-realist stage of Azerbaijani children's literature. At that stage, the range of topics and ideas of our children's literature is multifaceted. One of these directions is the subject of moral perfection. Our children's

writers (Seyid Azim Shirvani, Rashid bey Afandizade, Abdulla Shaig, Abbas Sahhat, Abdurrahman Dai, Alisattar Ibrahimov, Mir Seyfaddin Seyidov-Shirvani, Sultan Majid Ganizade, Mirza Alasgar Novras and oth.) have written interesting works on the subject. At the same time, these works are, in essence, examples of enlightenment-realist art. Our progressive-minded poets and writers focused on the depiction, glorification and promotion of colorful spiritual and moral beauties in children's works. Of course, since these beauties are diverse, the examples of word art written on the subject also had a variety of content and ideas. Among the many works with the same theme, content and high purpose, the artistic examples embodying the idea of spiritual and moral perfection occupied an important place.The article discusses prose works written on the topic of spiritual and moral improvement, their features of ideological content, and the world of images.We have tried to focus and analyze prose works that are important in terms of content. We have tried to clarify the artistic value of the works and their place in children's literature. We have made as many generalizations as possible during the analysis.
**Keywords:** Azerbaijani literature, child prose, enlightenment-realism, spiritual-moral perfection, values

**Article history:** received – 24.04.2024; accepted − 08.05.2024

## Giriş / *Introduction*

XIX əsrin II yarısı və XX əsrin əvvəllərində Azərbaycan uşaq ədəbiyyatının inkişafı və intişarı yolunda istər nəzəri, istərsə də əməli şəkildə fəaliyyət göstərən milli məfkurəli istedad sahiblərinin başlıca qayəsi, təbii ki, millət balalarının düzgün, məqsədəuyğun tərbiyəsi idi. Onlar bir təəssübkeş kimi, mənsub olduqları vətənin övladalarını kamil, mənən saf, əqli cəhətdən zəngin, mənəvi-əxlaqi baxımdan yetkin görmək istəyirdilər. Elmə və maarifə yiyələnmiş vətəndaşlar həm də ağıllı, düşüncəli, xeyirxah, əxlaqlı, halal, doğruluğu sevən, naqis əməllərdən uzaq olmalı, ata-ananı, böyükləri, dostu, yoldaşı, insanları sevməli, nəfsi istəklərini milli istəklərinə qurban verməyi bacarmalı, işıqlı mənəvi keyfiyyətlərin daşıyıcıları olmalı idilər. İnsanlığı və insani dəyərləri dərk və əxz edib əməli mənada bu dəyərlərə yiyələnməli idilər. Belə bir vacib məqsəd izlədiklərindən mütərəqqi baxışlı şair və ədiblərimiz uşaq əsərlərində rəngarəng mənəvi və əxlaqi gözəlliklərin təsvirini, tərənnümünü və təbliğini diqqət mərkəzində saxlayırdılar. Əlbəttə, bu gözəlliklər çeşidli olduğundan həmin mövzuda qələmə alınan söz sənəti nümunələri də çeşidli məzmun və ideyaya malik olurdu.

## Əsas hissə / *Main Part*

Həmin mövzu, məzmun və qayəyə malik çoxsaylı əsərlər içərisində milli-mənəvi dəyərlərimizə söykənən bədii nümunələr mühüm yer tuturdu. Əlbəttə, bu, səbəbsiz deyildi. Milli-mənəvi dəyərlərimizə sahib olmağın gələcək üçün mühüm əhəmiyyət kəsb etməsini dərk edən söz sənətkarları haqqında danışdığımız dövrdə uşaq poeziyasında olduğu kimi, uşaq nəsrində də deyilən ruhda əsərlər yazır, bədii sözün təsir gücündən yararlanmaq məqsədi güdürdülər. Belə bir təşəbbüs Azərbaycanda orta əsrlərdə də mövcud idi. XIX əsrin ortalarında ana dilində meydana gələn ilk dərsliklərdə də bu ənənə özünü qabarıq şəkildə büruzə verdi. M.Ş.Vazeh və İ.İ.Qriqoryevin “Kitabi-türki” (1852) dərsliyinə daxil edilən kiçik bədii mətnlərin böyük bir qismini əxlaqi-didaktik mövzulu əsərlər təşkil edirdi. Mirzə Nəsrullah Didənin 1857-ci ildə yazıb tamamladığı, lakin çap etdirə bilmədiyi “Kitabül-nəsayeh” adlı dərsliyindəki hekayət, rəvayət, kiçik nağıl və lətifələrin əksəriyyəti də əxlaqi-didaktik mövzuda idi. Müəllif bu əsərləri müxtəlif mənbələrdən əxz etmişdi. A.O.Çernyayevskinin “Vətən dili” dərsliyində, habelə haqqında danışdığımız dövrdə meydana gələn

başqa ana dili dərsliklərində, qiraət kitablarında və uşaq mətbuatında da bu ənənə davam etdirildi. Onu da əlavə edək ki, əxlaqi-didaktik məzmun və ideyaya malik kiçikhəcmli belə əsərlərin mühüm bir qismi ayrı-ayrı mənbələrdən əxz olunurdu. Bunların çoxu əvvəlcə Şərqdə yaranan, sonra isə başqa xalqların ədəbiyyatına, pedaqoji həyatına da yol tapan səyyari süjetlər idi. Haqqında danışdığımız əsərlər mövzu və ideya etibarı ilə rəngarəng idi.

"Aslan dərisinə girən eşşək", "Qaraçı" [3, s.36, s.48], "Küpə və qazan", "Balta və buşqu" [4, s.64, s.73], "İki qurd və tülkü", "Ayağı birbir qoyarlar nərdivana", "Avam kəndlinin fərasəti", "İt", "Qurd", "Pişik və kəsəyənin hekayəti" [6, s.76, s.81, s.85, s.86, s.89], "Cürətli uşaqlar", "Qoçaq fəhlə" [8, s.53, s.64], "Ağıl yaşda deyil başdadır" [10, 1914, №14], "Əqilli qız" [10, 1915, №2], "Səfdərin igidliyi" [10, 1916, № 4-5] kimi hekayələrdə ağılsızlıq, dərrakəsizlik, düşüncəsizlik, axmaqlıq, saxtakarlıq tənqid olunur. Bunların əksi olan müsbət keyfiyyətlər – fərasət, dərrakəli və düşüncəli hərəkət, ağıl və kamal isə təriflənir.

R.Əfəndizadənin "Bəsirətül-ətfal" dərsliyinə daxil etdiyi "İki qurd və tülkü" təmsilində ağılsızlıq, dərrakəsizlik, korafəhimlik, zehniyyətsizlik ağıl, dərrakə və hiyləgərliklə üzləşdirilir. Kiçik, yumorla müşayiət olunan bir süjetdə, balaca bir epizodda müəllif deyilən bu iki müsbət və mənfi keyfiyyətlərin nəyə gətirib çıxardığını, hər kəsin taleyində nələrə gətirib çıxara biləcəyini anladır. Belə ki, burada təsvir olunan tülkü öz ağlı, zirəkliyi və hiyləgərliyi ilə iki ağılsız, axmaq, dərrakəsiz qurdu bir-birinə düşmən edir. Onlar savaşıb bir-birini al qana qərq edir, taqətsiz halda hərəsi bir tərəfə düşüb qalırlar. Tülkünün çobanı buraya çağıracağı xəbərdarlığı isə qurdların taleyinin sonuna işarə kimi qəbul edilə bilər. Deməli, ağılsızlıq, zehinsizlik hər kəsi ölümə qədər gətirib çıxara bilər.

Ə.Qafarzadənin "Ağıl yaşda deyil? başdadır" hekayəsində oğlan uşağı Mahmud öz zirəkliyi, fərasəti, bacarığı ilə böyüklərdən daha üstün görünür. O, öz dərrakəsi ilə mürəkkəb işə düşmüş və buna görə də kəndxudaya cavab verməli olan babasını çətin vəziyyətdən qurtarır.

"Məktəb" jurnalında imzasız çap olunan "Səfdərin igidliyi" hekayəsi "Cırtdanın nağılı" adlı xalq nağılının təsiri ilə qələmə alınmışdır. Lakin hadisələrin axarını realist məcraya yönəldən müəllif oradakı Div qarısı obrazını real həyat adamı ilə əvəz etmişdir. Ə.Qafarzadənin hekayəsindəki Mahmud obrazı kimi burada da Səfdər adlı ağıllı və bacarıqlı bir uşaq surəti ilə tanış oluruq. O öz çevik düşüncəsi, ayıq, uzaqgörən baxışı ilə öz yoldaşlarını düşdükləri dolaşıq, mürəkkəb situasiyadan qurtarır.

"Qaz və durna" [3, s.36], "Bayquş və dovşan" [6, s.87] kimi hekayələrdə lovğalıq, yersiz təkəbbür, xarakterdəki eqoizm tənqid olunur. Məlumdur ki, "Qaz və durna" süjeti bir neçə şairin qələmi ilə ayrı-ayrılıqda mənzum şəkildə də qələmə alınmışdır. Əhvalatda əsas ideya yersiz təkəbbür və lovğalığın tənqidi ilə bərabər, "çox sənət öyrənib hamısını yarımçıq bilməkdənsə, bir sənəti kamil öyrənmək daha şərəflidir" qayəsinin təlqinidir. "Bayquş və dovşan"da isə təkəbbür və lovğalığa təcrübəsiz davranışın səhv nəticələrə gətirib çıxarması ideyası da əlavə olunur.

Əxlaqi-didaktik mövzulu nəsr əsərlərində oğurluq, əliəyrilik, haramlıq qeyri-insani keyfiyyətlər ciddi şəkildə tənqid olunur. Düzlük, halallıq, etibar, sədaqət nurlu əməl kimi təriflənir. "Vətən dili"ndəki "Daşçı" [4, s.84], R.Əfəndiyevin "Məhəmmədin xəcaləti" [6, s.94], S.M.Qənizadənin "Nabəkar qonşu" [7, s.168-175], "İkinci il" dərsliyindəki "Təlimli sığırçın" [8, s.43], "Yeni məktəb" dərsliyindəki "Əmanət", "Bircə şahının qurbanı" [9, s.87, s.96], Əli Səfanın "Düzlük" [10, 1912, №7], imzası göstərilməyən "Balıqçı Səməd kişi və balaca Musa" [10, 1914, №7], müəllim Abasqulunun "Şahzadə və oğlan" [10, 1915, №7], Mətləb Abidzadənin "Oğurluğun bəlası" [10, 1916, №6] kimi hekayələr deyilən mövzu ilə əlaqədardır.

Uşaq nəsrimizin dəyərli nümunələrindən olan "Nabəkar qonşu" S.M.Qənizadənin qələminə məxsusdur. Yazıçının XIX əsr rus ədibi A.F.Poqosskinin "Visyaçiy qost" ("Asılmış qonaq") əsərindən təbdil etdiyi bu hekayə ilk dəfə "Dəbistan" (1906, №1-6) jurnalında, 1912-ci ildə isə ayrıca kitabça halında nəşr edilmişdir. Sənətkar əsərin mövzusunu rus ədibindən götürsə də, onu tamamilə milliləşdirmişdir.

Hekayənin əsas qəhrəmanı Xancan kiçik yaşlarından pis, avara, əliəyri yoldaşlara qoşulur. Tüfeyli bir həyat yaşayır, zəhmətdən, faydalı işlərdən uzaqlaşır. Nəhayət, oğurluğa qurşanır. Ancaq qurşandığı eybəcər məşğuliyyət sonda onu öz toruna salır. O, oğurluq üçün evinə girdiyi varlı kişi Hacı Qasımın oğlu Abdullanı onu tanıyıb ələ verməsin deyə asıb öldürmək istəyir. Ancaq öz boğazı kəndirə keçir və boğulub ölür.

Öz qazdığı quyuya düşür. Onun oğurluğu belə bir faciəli nəticə ilə bitir. Hekayənin süjeti "Nə tökərsən aşına, o da çıxar qaşığına" xalq məsəli ilə uzlaşır. Yazıçı oğurluğun, əliəyriliyin, haram yol tutmağın son nəticədə insanı haraya gətirib çıxardığını anlatmaq məqsədi güdür. Ona görə də hekayəni ibrətamiz bir sonluqla tamamlayır. Bununla yanaşı "insan əxlaqının qüsurlu cəhətlərinin tənqidinə qarşı çevrilmiş hekayə gənclərə yaxşı dost seçməyi, bədxah adamlardan uzaqlaşmağı, zəhmətlə, faydalı əməklə məşğul olmağı tövsiyə edir" [11, s.156].

"Yeni məktəb" dərsliyindəki "Əmanət" hekayəsində isə düzlük, halallıq, etibar, sədaqət problemi qoyulur. Belə ki, İmran adlı bir şəxs səfər zamanı xeyli miqdarda pulu qonşusu Mərdana əmanət kimi verir ki, onu ailəsinə çatdırsın. Təsadüfən Mərdanın evi yanır, amma həmin pul salamat qalır. O, pulu İmranın atasına çatdırır. Öz etibar və halallığını sübut edir. Halbuki İmranın ailəsinə pulun da yandığını deyə bilərdi. Göründüyü kimi, əsərin qəhrəmanı Mərdan ideal düzlüyə, təmizliyə malik nümunəvi bir obraz kimi təqdir edilir.

Uşaq poeziyasında olduğu kimi, uşaq nəsrində də valideyn-övlad münasibətlərinə həsr olunmuş xeyli əsərlər yazılmışdır. Bunlar daha çox kiçikhəcmli, birepizodlu, lakonik süjet xətti olan hekayələrdir. Hekayələrin bir qismində valideynlərin övlada məhəbbəti, şəfqəti, dərin hissləri təcəssümünü tapırsa, digər bir qismində, əksinə, övladın valideynə rəğbət və məhəbbəti əks etdirilir. Birinci qrupa daxil olan hekayələrdən aşağıdakıları göstərmək olar: "Pişik və qara quş" [8, s.41]; "Azarlı uşaq və anası", "San-Qotard itləri" [9, s.59, s.68]; "Validə məhəbbəti", "Ata məhəbbəti", "Valideyn məhəbbəti" [1, s.83, s.91, s.112]; "Ata və ana məhəbbəti" [2, s.542].

"Ədəbiyyat məcmuəsi" dərsliyinə daxil edilmiş "Ata məhəbbəti" hekayəsində mövzusu tarixi hadisədən alınmış, yəni vaxtilə Fransada baş vermiş bir əhvalat təsvir olunur. Ata ölüm cəzasına məhkum olunmuş oğlunun əvəzində onun adı ilə edama gedir və oğlunu ölümdən xilas edir. M.T.Sidqi Səfərovun "Ata və ana məhəbbəti" hekayəsində isə ideya belə bir mərama yönəldilir ki, ata və ananın övlada məhəbbəti Allah-taala tərəfindən valideynə bəxş olunmuş fitri bir xüsusiyyətdir. Həm də bu xüsusiyyət təkcə insanlara deyil, bütün canlılara aiddir.

Valideynlərin övlada sevgisini əks etdirən hekayələrdə, təbii ki, ata-ananın əzəməti, övladın yolunda çəkdiyi cəfa və əziyyətlər, şəfqət və mehribanlıq və s. nəzərə çatdırılır.

Deyildiyi kimi, valideyn-övlad münasibətlərindən bəhs edən nəsr nümunələrinin ikinci qismində övladın valideynə münasibəti əsas hədəf kimi götürülür. "Bala məhəbbəti", "Kasıb" [4, s.48, s.56], habelə R.Əfəndiyevin "Qoca baba və nəvəsi", "Oğul məhəbbəti" [6, s.92, s.96], Mir Seyfəddin Seyidovun "Mürüvvətli qız" [10, s.48], M.Mahmudbəyovun "Yaxşı qardaş" [8, s.38], "Ata məhəbbəti" [9, s.117] kimi miniatür hekayələri bu silsiləyə daxildir. Həmin hekayələrdə təsvir edilən hadisələrin fonunda övladların həm valideynlərinə, həm də ümumiyyətlə, ailə üzvlərinə məhəbbəti, ehtiramı, səmimiyyəti, övladlıq və ya qardaş-bacılıq borcu ifadə olunur. Bununla da kiçik oxucuların qəlbində həmin insanlara qarşı rəğbət hissi aşılanır.

Uşaq nasirləri tamahkarlığı, acgözlüyü, xəsisliyi, sərvətə aludəçiliyi, pulgirliyi də mənfi mənəvi-əxlaqi sifət kimi pisləyir, gözütoxluğu, səxavəti, nəfsi istəkləri öldürmək bacarığını təqdir edirdilər. Mövzu dairəsi deyilən məsələlərlə bağlı olan nəsr əsərlərindən bunları göstərmək mümkündür: "Qarı və pişik", "Əsgər və zərgər", "Tülkü və çaqqal" [4, s.61, s.73, s.84]; R.Əfəndizadə – "Molla, seyid və dərviş", "Xəsis və xeyirxah" [6, s.79, s.84]; Hacı Gözəlov – "Tamah hər şeydən pisdir" [10, 1914, №10]; A.Şaiq – "Tamahkar uşaq" [14, s.38]; Ş.Səfərov – "Tamahkar zərgər" [10, 1916, №3].

Belə əsərlərdə bir qayda olaraq müəlliflər "ideyadan süjetə" prinsipini əsas götürür,

məqsədli süjetlər qururdular. Qurulan süjetin əsas ideya axarı sadalanan mənfi xüsusiyyətlərin ibrətamiz əhvalatlar fonunda tənqidinə və inkarına yönəldilirdi. Hətta bəzən ideya birbaşa sərlövhəyə çıxarılır. Hacı Gözəlovun "Tamah hər şeydən pisdir" hekayəsi belə bədii nəsr nümunələrinin tipik bir örnəyidir. Hekayədəki qoca kəndli sadəlövhlüyün, gözütoxluğun, mal-mülk əsirinə çevrilməməyin, Allahtaalanın verdiyi hər cür ruziyə şükür oxumağın, tacir isə tamahkarlığın, acgözlüyün, nəfsin əsirinə çevrilən insanın timsalıdır. Tacir nəticədə öz mənfi xislətinin qurbanına çevrilir. Tamahkarlığı, nəfsi onu ölümə aparır. Ona görə də müəllif tamahı hər şeydən pis bir xüsusiyyət kimi təqdim edir.

Qələm sahibləri gənc nəslə öyrədir ki, böyüyün sözünə baxmaq, ağıllı məsləhəti eşitmək, faydalı göstəriş və nəsihətlərə əməl etmək lazımdır. "Vətən dili" dərsliyindəki "Tərlan balası" [4, s.53] təmsilində tərlanın balası ata-anasının məsləhətinə qulaq asmayıb özbaşına iş gördüyü üçün faciəyə düçar olur. Abid Mətləbzadənin "Alim pişiyin hekayətləri" [10, 1916, №11] adlı hekayəsində də pişiyin öz balalarına danışdığı nağıllarda eyni ideya ifadə olunur. Pişik övladlarına şirin bir dillə yığcam süjetli nağıllar danışır. Nağılların əsas məzmunu böyüklərin faydalı məsləhətlərinə, göstərişlərinə baxmağın uğurlu nəticəsi, əksinə, böyükləri dinləməməyin kədərli aqibəti ilə bağlıdır. Abid Mətləbzadənin "Sözə baxmamağın nəticəsi" [10, 1915, №11] hekayəsində də eyni mətləb öz bədii təcəssümünü tapır.

"Yavaş gedən uzaq gedər" [4, s.82], Mir Seyfəddin Seyidovun "Vəfalı it" [13, s.31], R.Əfəndizadənin "Bir cütçünün sərgüzəşti, yaxud bir itin sədaqəti" [5, 1907, №2] kimi hekayələrdə belə bir qayə izlənilir: bir iş görərkən səbrli ol; yüz ölç, bir biç; etibarı itirmə; sədaqətli, vəfalı ol; bir addımı atmazdan əvvəl, onun sonunu düşün, çünki səbrsiz və səhv atılan addım nəticədə peşmançılıq və məyusluq doğurur.

Uşaq nəsrində gözəl əxlaq, saf tərbiyə vacib insani keyfiyyət sayılır. Hətta o, elmdən, maarifdən də üstün cəhət hesab olunur. Uşaq nasirləri öz əsərlərində bunu bariz şəkildə ifadə edirlər. İslam bəy Qəbulovun "Qoca baba ilə məktəb uşağının söhbəti" [10, 1912, №4] hekayəsində "müdrik qocanın məktəb şagirdi ilə əxlaq barəsindəki səhbətində dediyi aşağıdakı sözlər uşaq nəsri üçün ümumi konsepsiya" [12, s.203] kimi səslənirdi: "Əxlaq insanda bir sifətdir ki, onun yanında dövlət, hünər, hətta elm özü də bir şey hesab olunmaz. Gözəl əxlaqlı bir adam nə qədər avam da olsa, yenə ona hörmət edərlər".

Əlimişan Hüseynzadənin "Qarı nənə ilə bir tülkünün hekayəti" [10, 1913, №17] əsərində xalq nağıllarının ciddi təsiri duyulur. Hekayədə irəli sürülən əsas qayə sirr saxlamağı bacarmaqla bağlıdır. Qarı balalarını xilas etdiyi üçün tülkü ilə əhd-peymanı, sövdələşməni pozur. Aradakı sirri açıb başqasına deyir. Nəticədə həm tülkünün balalarını ölümə verir, həm də özü firavan yaşayışdan məhrum olur. Müəllif demək istəyir ki, sirr saxlamağı bacar, şirin dilə aldanma, yoxsa peşmançılıq çəkərsən.

Uşaq yazarlarının təbliğ etdikləri mənəvi-əxlaqi ideyalar silsiləsi zəngin və çoxrənglidir. Bunlara: xeyirxah ol, pislik etmə, yaxşı işlərlə məşğul ol, yaxşılıq et, dostluqda və yoldaşlıqda sədaqətli ol, pis adamlarla oturub-durma, hiyləyə aldanma, hiyləgərlik və yalançılıq etmə, səliqəli ol, höcətlik, tərslik etmə, satqın və xəyanətkar olma, həmişə yaxşı niyyətlə yaşa, bəd niyyətli olma, pis, nalayiq sözlər danışma, şirindil və xoşrəftar ol və s. kimi fikirləri də əlavə etmək mümkündür.

Haqqında söhbət açdığımız nəsr əsərləri sənətkarlıq siqləti, bədii-estetik keyfiyyəti ilə o qədər də yüksək səviyyəli əsərlər deyil. Onların müəllifləri də peşəkar yazıçılar yox, əsasən, pedaqoqlardır. Həmin pedaqoqların məqsədi, ilk növbədə, uşaqların mütaliəsi, mənəvi qidası və tərbiyəsi üçün millət balalarına nə isə bir oxu materialı vermək, bu sahədəki boşluğu doldurmaq olmuşdur. Ona görə də onlar lazımlı ideyaları qabartmağa, bu mövzularda müəyyən əsərlər yazıb uşaqlara təqdim etməyə çalışmışlar. Bu səbəbdən həmin nümunələrdə ideyanın təqdimi önə, peşəkarlıq, sənətkarlıq isə arxa plana keçir.

**Nəticə / *Conclusion***

Haqqında söhbət açdığımız nəsr əsərləri sənətkarlıq siqləti, bədii-estetik keyfiyyəti ilə o qədər də yüksək səviyyəli əsərlər deyil. Onların müəllifləri də peşəkar yazıçılar yox, əsasən, pedaqoqlardır. Həmin pedaqoqların məqsədi, ilk növbədə, uşaqların mütaliəsi, mənəvi qidası və tərbiyəsi üçün millət balalarına nə isə bir oxu materialı vermək, bu sahədəki boşluğu doldurmaq olmuşdur. Ona görə də onlar vətən övladlarını mənəvi-əxlaqi kamil insan kimi yetişmələri üçün lazımlı ideyaları qabartmağa, bu mövzularda müəyyən əsərlər yazıb uşaqlara təqdim etməyə çalışmışlar. Bu səbəbdən həmin nümunələrdə ideyanın təqdimi önə, peşəkarlıq, sənətkarlıq isə arxa plana keçir.

**Ədəbiyyat / *References***


1. Ağazadə, F.R. Ədəbiyyat məcmuəsi / F.R.Ağazadə. – Bakı: Kaspi, 1912. – 370 s.
2. Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər) : [3 cilddə]. / tərt.ed. X.Məmmədov, A.Həsənov – Bakı: Nasir, c. 2, 2002. – 636 s.
3. Çernyayevski, A.O. Vətən dili (Rodnaya reç). I hissə: / A.O.Çernyayevski. – Tiflis: Ünsizadə, 1882. – 28 s.
4. Çernyayevski, A.O. Vətən dili. II hissə: / A.O.Çernyayevski, S.A.Vəlibəyov. – Tiflis: Kəşkül, 1888. – 169 s.
5. “Dəbistan” jurnalı. – Bakı, 1906-1908.
6. Əfəndizadə, R.İ. Seçilmiş əsərləri / R.İ.Əfəndizadə. – Bakı: Gənclik, 1979. – 134 s.
7. Qənizadə, S.M. Seçilmiş əsərləri / S.M.Qənizadə. –Bakı: Azərnəşr, 1965. – 326 s.
8. Mahmudbəyzadə, M.P. İkinci il. / M.P.Mahmudbəyzadə, S.Əbdülrəhman-bəyzadə, S.Axundov – Tiflis: Qeyrət, 1908. – 101 s.
9. Mahmudbəyov, M.P. Yeni məktəb / M.P.Mahmudbəyov, A.Ə.Mehdizadə (Abbas Səhhət) – Bakı: Kaspi, 1909. – 160 s.
10. “Məktəb” jurnalı. – Bakı, 1911-1920
11. Məmmədov, X.Q. Sultan Məcid Qənizadə / X.Q. Məmmədov. Bakı: Yazıçı, 1983. – 213 s.
12. Məmmədov, M.M. Pedaqoji mühit və uşaq ədəbiyyatı / M.M.Məmmədov, Y.M.Babayev, T.S.Cavadov. – Bakı: Maarif, 1992. – 288 s.
13. Seyidov, Mir Seyfəddin (Şirvani). Kitabi-xəzainül-ətfal / M.M.Seyidov. – Tiflis: Gürcü şirkəti elektrik mətbəəsi, 1902. – 74 s.
14. Şaiq, A.T. Uşaq gözlüyü. – Bakı, 1910.


# Воплощение духовно-нравственного совершенства в Азербайджанской просветительско-реалистической детской прозе


**Севиндж Расулова**
Доктор философии по педагогике
Министерство Науки и Образования Азербайджанской Республики
Департамент образования города Баку
E-mail: rasulova.s@mail.ru
https://orcid.org/0000-0003-1070-6069



**Резюме.** Детская литература является важной и значимой частью нашего художественного богатства. Конец XIX и начало XX веков – просветительско-реалистический этап Азербай-

джанской детской литературы. На этом этапе спектр тем и идей нашей детской литературы многогранен. Одним из этих направлений является тема духовно-нравственного совершенства. Наши детские писатели (Сеид Азим Ширвани, Рашид бек Афандизаде, Абдулла Шаиг, Аббас Саххат, Абдуррахман Дай, Алисаттар Ибрагимов, Мир Сейфаддин Сеидов-Ширвани, Султан Маджид Ганизаде, Мирза Алескер Новрас и др.) написали интересные произведения на эту тему. В то же время эти произведения, по сути, являются образцами просветительско-реалистического искусства. Наши прогрессивно мыслящие поэты и писатели сосредоточились на описание, прославлении и пропаганде ярких духовных и нравственных ценностей в детских произведениях. Конечно, поскольку эти ценности были разнообразны, то и образцы словесного искусства, аписанные на эту тему, также имели различное содержание и идеи. Среди многочисленных произведений написанных на эту тему, важное место занимали ценные художественные примеры с содержанием и высоким назначением, воплощающие идею духовного и нравственного совершенствования. В статье рассматриваются прозаические произведения, написанных на тему духовного и нравственного совершенствования, их особенности идейного содержания, мир образов. Мы старались сфокусировать и проанализировать работы, которые важны с точки зрения содержания и мастерства. Мы постарались уточнить художественную ценность произведений, их место в детской литературе. В ходе анализа мы сделали как можно больше обобщений.

**Ключевые слова:** Азербайджанская литература, детская проза, просветительский реализм, духовно-нравственное совершенствование, ценности